**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015,  10, maddə 1109; 2017,  11, maddə 1973; 2018,  11, maddə 2232,  12 (I kitab), maddə 2520; 2019,  2, maddə 202,  6, maddə 1006; 2020,  3, maddə 224) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddədə “2021” rəqəmləri “2022” rəqəmləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2.1-1-ci maddə əlavə edilsin:

“2.1-1. Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra yoxlayıcı orqanlar tərəfindən sahibkarların yoxlamaların dayandırıldığı dövrdəki fəaliyyəti ilə bağlı plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamalar (bu Qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla) aparıla bilməz.”.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2021-ci il
279-VIQD